# Azərbaycanın ləyaqətli davranışı bizə böyük nüfuz qazandırdı

Məsələn, 2020-ci ildə biz axırıncı iki əsrin ən möhtəşəm qələbəsinə nail olaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bu, cəmi 30 yaşı olan gənc müstəqil dövlətin çoxsaylı himayədarlarına güvənərək, torpaqlarımızın 20 faizini işğal etmiş, yüz illər boyu fitnə-fəsadlar törətmiş, özü haqqında miflər yaratmış dünya erməniliyinə vurulan sarsıdıcı zərbə idi. 2021-ci ildə isə həmin tarixi zəfərin nəticələrinin bütün dünyada tanıdılmasını təmin etdik.

***Ölçülüb-biçilmiş siyasi kursun, hər addımı reallığı əks etdirən daxili və xarici siyasətin sonda möhtəşəm uğurlarla nəticələnəcəyi şəksizdir. Biz bu arqumentin təsdiqini Azərbaycanın timsalında 1993-cü ilin yayından bəri dəfələrlə görmüşük və son 18 ildə daha geniş miqyasda görürük. Son iki ildə isə həmin siyasət xalqımızın tarixinə heç zaman silinməyəcək səhifələr yazmaqda davam edir.***

Fikrimcə, bu fakt bizimlə yanaşı, region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki 44 günlük müharibədən sonra Ermənistandakı bəzi dairələrin revanş barədəki düşüncələrini körükləyən xarici qüvvələr çox idi. Prezident İlham Əliyev həmin qüvvələrin hamısına reallığın, həqiqətin harada olduğunu böyük peşəkarlıqla başa saldı.

*(ardı 3-cü səhifədə)*

*Müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var. Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi.*

***Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətindən 31 dekabr 2021-ci il.***




# Azərbaycanın ləyaqətli davranışı bizə böyük nüfuz qazandırdı

***(əvvəli 1-ci səhifədə)***

İlin sonunadək dünyanın bütün ölkələri Cənubi Qafqazda yaranmış yeni reallıqları nəinki tanıdılar, hətta dəstəkləməyə başladılar. Qətiyyətlə deyə bilərik ki, 2021-ci ildə qazandığımız nəticələr də elə əvvəlki ildə qazandığımız göstəricilər kimi tarixi əhəmiyyət kəsb edir.

Bütün bunlar barədə Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 31 dekabr 2021-ci il tarixli müraciətində daha geniş və tarixi faktlarla əsaslandırılmış şəkildə tanış olduq.

Müraciətin əvvəlində "2021-ci il ölkəmiz üçün uğurlu il olmuşdur" məmnunluğunu dilə gətirən dövlət başçımız xatırlatdı ki, ötən il biz qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün dünya daha güclü Azərbaycanın həqiqətlərini tanıyır.

Doğrudan da, 2021-ci ildə şahidi olduğumuz faktlar və hadisələr sübut edir ki, biz ötən il beynəlxalq arenadakı mövqelərimizi kifayət qədər möhkəmləndirə bildik. Dövlətimizin nüfuzu artdı, Prezidentimiz bir neçə beynəlxalq təşkilata uğurla rəhbərlik etdi. Məsələn, rəsmi Bakı Qoşulmama Hərəkatının sədri kimi bütün üzv ölkələrin maraqlarını müdafiə etməyi bacardı, Prezidentimiz beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etmək nümunəsi yaratdı. Bütün bunların nəticəsidir ki, Qoşulmama Hərəkatına üzv ölkələrin hamısı Azərbaycanın sədrliyinin daha bir il uzadılmasına yekdilliklə etimad göstərdi.

Daha bir önəmli fakt ondan ibarətdir ki, Azərbbaycan ötən il Türk Şurasına sədrliyini uğurla başa vurdu. Xatırladaq ki, noyabr ayında keçirilmiş Zirvə görüşündəTürk Şurası Türk Dövlətləri Təşkilatına çevrilmişdir. Bu təşkilat da Qoşulmama Hərəkatı kimi Azərbaycanın haqq işinə daim dəstək olmuşdur.

Yeri gəlmişkən, Azərbaycanın haqq işini, ərazi bütövlüyünü və apardığı ədalətli müharibəni tam olaraq dəstəkləyən beynəlxalq təşkilatların sırasında İslam Əməkdaşlıq Təşkilatı da var. Bu qurum da ölkəmizin ərazisi bütövlüyü pozulandan bəri daim Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. Xalqımız və dövlətimiz ötən il də İƏT-in dəstəyini görmüşdür. Dövlət başçımız adı çəkilən müraciətdə bu məsələyə xüsusi olaraq münasibət bildirərək qeyd etdi ki, "müharibədən sonra müharibənin nəticələrinin qəbul etdirilməsi üçün İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm".

Heç kəsə sirr deyil ki, işğalçı ölkənin himayədarlarının xeyli hissəsi Qərbdə, xüsusən, Avropada idi. Ədalət naminə deyək ki, Avropada bizim mövqeyimizi müdafiə edənlər də, Ermənistanın himayədarları qədər olmasa da, az deyildi. Ancaq on il ulu öndər Heydər Əliyevin, 2003-cü ilin payızından sonra isə Prezident İlham Əliyevin uğurlu xarici siyasəti dünyanın əksər siyasi dairələrində Azərbaycana və Ermənistana olan münasibətlərdə obyektivliyin qorunmasına zəmin yaratmışdır. İndi artıq Qərbdəki ikili standart müəlliflərinin də haqqı, ədaləti müdafiə edən mövqeləri formalaşıb.

Dövlət başçımız ötənilki uğularımız barədə söhbət açarkən dedi: "Dekabr ayında NATO və Avropa İttifaqına mənim uğurlu səfərlərim olub. NATO öz zirvə görüşlərində daim Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişdir. Doqquz zirvə görüşündə bu qətnamələr qəbul edilmişdir. Bu dəfə də bu dəstək ifadə olundu. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşünün yekununda qəbul edilmiş yekun sənəddə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəklənir".

Bütün bunlar onu deməyə əsas verir ki, indi artıq dünya ölkələri və bütün siyasi dairələr İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edirlər. Dövlət başçımız xatırlatdı ki, müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək siyasi baxımdan çox önəmli hadisə sayıla bilər.

Bir vətəndaş və jurnalist kimi deyə bilərəm ki, cənab Prezidentin bu müraciətindəki bir ifadə daha böyük arealda bəyənilib və dəstəklənib. Belə ki, Azərbaycanın öz qonşuları ilə münasibətlərindən, xüsusən, Türkiyə, Rusiya, İran və Gürcüstanla sıx əməkdaşlığından söz açan dövlət başçımız xatırladır ki, qonşular haqqında danışanda təbii olaraq Ermənistanı mən heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etmirdim. Bu gün də hələ ki, daxil etmirəm: "Amma ümid edirəm ki, nə vaxtsa Ermənistanla da bizim qonşuluq əlaqələrimiz qurulacaq. Hər halda, İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Hər halda, noyabr və dekabr aylarında Soçi və Brüssel şəhərlərində keçirilmiş görüşlər ümidvericidir və ümid edirəm ki, bu görüşlərdə əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaqdır".

Prezidentimizn fikrincə, 2021-ci ildə Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki zəfərimiz, savaş dövründə bütün qaydalara riayət etməyimiz və postmüharibə mərhələsində özümüzü ləyaqətlə aparmağımız idi.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***